# 31 MART SOYQIRIMI QURBANLARININ XATİRƏSİ EHTİRAMLA ANILIB

## GƏNCƏ

Gəncə Dövlət Universitetində "31 Mart - Azərbaycanlıların Soyqırımı Günüdür" adlı elmi-praktiki konfrans keçirilmişdir. İlk öncə soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Konfransı giriş sözü ilə universitetin Humanitar məsələlər üzrə prorektoru, dosent Gülsüm Fətəliyeva açaraq, erməni daşnakları tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı haqqında konfrans iştirakçılarına geniş məlumat vermişdir. Bildirmişdir ki, mart soyqırımı və ya mart hadisələri - 1918-ci ilin 30 mart və 3 aprel tarixi arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğındır. 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" imzaladığı fərmana əsasən, 31 Mart tarixi Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur. YAP universitet təşkilatının sədri, Azərbaycan tarixi kafedrasının dosenti Cavid Bağırzadə, ümumi tarix kafedrasının dosenti Hüseyn Bəxtiyarov, ümumi tarix kafedrasının baş müəllimi Yəhya Süleymanov və başqaları məruzələrlə çıxış etmişlər. Sonda bütün Azərbaycan gənclərinə qan yaddaşımızı unutmamaq və tariximizi gələcək nəsillərə çatdırmaq tövsiyə olundu. Tədbirin sonunda erməni vəhşiliyini əks etdirən videoçarx nümayiş etdirildi. Eyni zamanda Gəncə Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatı — 1918-ci ilin mart ayında erməni faşizminin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımla bağlı inşa-yazı müsabiqəsi həyata keçirmişdir. Müsabiqədə müxtəlif fakültələrdən 60 tələbə iştirak etmişdir.



* * *

Azərbaycan Texnologiya Universitetinin rəhbərliyi, professor-müəllim heyəti və tələbələrin iştirakı ilə "31 Mart - Azərbaycanlıların Soyqırımı Günüdür" mövzusunda tədbir keçirilmişdir. İlk öncə soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, mövzuya aid videoçarx nümayiş etdirilmişdir. Sonra ATU-nun rektoru, professor Akif Süleymanov ermənilərin xalqımıza qarşı müxtəlif dövrlərdə həyata keçirdikləri soyqırımı və işğalçılıq siyasəti barədə geniş məlumat vermişdir. O bildirmişdir ki, iki yüz ildən artıqdır ki, erməni millətçiləri tərəfindən xalqımıza qarşı ardıcıl soyqırımı və təcavüz siyasəti aparılır. 1918-ci ildə erməni millətçiləri tərəfindən törədilmiş qanlı faciənin tarixi haqqında danışan rektor məhz ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanının tarixin qaranlıq səhifələrinə işıq salmağa imkan verdiyini diqqətə çatdırmışdır.



Çıxış edənlər birmənalı qeyd etdilər ki, 1918-ci ilin mart günlərindəki qırğınlar zamanı ermənilər üç gün ərzində Bakıda 12 min soydaşımızı vəhşicəsinə qətlə yetirib. Sonrakı günlərdə Şamaxı, Quba və digər yerlərdə on minlərlə azərbaycanlı qəddarlıqla öldürülüb, yaşayış məntəqələri, məscidlər, mədəniyyət abidələri yerlə-yeksan edilib. 1918-1920-ci illərdə Qarabağ, Qərbi Azərbaycan və digər bölgələrdə on minlərlə soydaşımız amansızlıqla öldürülüb. Məhz bu həqiqətlər daim xatırlanmalı, soyqırım qurbanları yad edilməli, bu məlumatlar tarixi faktlara əsaslanmaqla yetişməkdə olan nəslə çatdırılmalıdır.

* * *

Azərbaycan Dövlət Aqrar Universitetində 31 Mart soyqırımına həsr edilən tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov açaraq, qeyd etdi ki, XIX əsrin əvvəllərindən başlayaraq, Qafqazda kütləvi şəkildə məskunlaşdırılan ermənilər, az müddət sonra bölgəni sözün əsl mənasında "qan çanağı"na çeviriblər. Ermənilərin "böyük Ermənistan" yaratmaq kimi qondarma ideyanın gerçəkləşməsi yolunda atdıqları addımlar azərbaycanlılara qarşı kütləvi qətllərin və soyqırımı aktlarının reallaşması ilə nəticələnmişdir. Bu qanlı tarix qısa fasilələrlə zaman-zaman bütün 20-ci əsr boyu dönə-dönə təkrarlanmışdır. Onlar nəyin bahasına olursa-olsun Azərbaycan torpaqlarında məskunlaşmağa çalışıblar. Bu mənfur niyyəti reallaşdırmağın yolu isə azərbaycanlıların kütləvi soyqırımından, qanlı talanlardan və deportasiya siyasətindən keçmişdir.



Çıxışının sonunda universitetin rektoru tam əminliklə bildirdi ki, xalqımızın başına gətirilən tarixi faciələrini unutmadan, onlardan düzgün nəticə çıxarmaqla, ölkə Prezidenti cənab İlham Əliyev ətrafında sıx birləşərək, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcək, doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımız öz ata-baba torpaqlarına qayıdacaqlar.

Tədbirdə çıxış edən müəllim və tələbələr də 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirilən dəhşətli soyqırımı aktından böyük ürək yanğısı ilə danışmışlar.

* * *

## Samux

Samux Rayon İcra Hakimiyyətinin nümayəndələrinin, bələdiyyə sədrlərinin, hüquq-mühafizə orqanlarının, təhsi, səhiyyə, mədəniyyət idarələrinin rəhbərlərinin iştirakı ilə xalqımızın qan yaddaşında dərin iz buraxmış "31 Mart Azərbaycanlıların Soyqırımı Günü" ilə bağlı elmi-praktiki konfrans keçirilmişdir.



Tədbiri çiriş sözü ilə açan Samux Rayon İcra Hakimiyyəti başçısı Alı Qocayev tarix boyu xarici qüvvələrin havadarlığı ilə erməni qəsbkarlarının vətənimizə və xalqımıza qarşı məkrli addımlar atdığını, qırğın və soyqırımları həyata keçirdiyini tədbir iştirakçılarının diqqətinə çatdırdı. Belə qanlı olaylardan birinin də 1918-ci ildə erməni daşnak-bolşevik birlikləri tərəfindən törədilən 31 Mart Soyqırımı olduğunu bildirən rayon rəhbəri, bu qətliam zamanı azərbaycanlılara məhz milli mənsubiyyətinə görə divan tutulduğunu vurğuladı. Bildirdi ki, yalnız ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da, 1918-ci ilin mart hadisələrinin 80-ci ildönümü ərəfəsində, imzaladığı fərmanda erməni millətçiləri tərəfindən törədilmiş hadisələrə siyasi qiymət verildi.

Samux rayon İnstitut qəsəbə tam orta məktəbinin müəllimi Şəhla Məmmədhəsənova, Samux şəhər 2 saylı tam orta məktəbin müəllimi Aidə Namazova və Samux rayon Qarayeri qəsəbə 2 saylı tam orta məktəbinin müəllimi Nurlana Kazımova çıxışlarında xarici havadarlarının dəstəyi ilə əzəli Azərbaycan torpaqlarında məskunlaşdırıldıqdan sonra ermənilərin daim soydaşlarımıza qarşı məkrli və təcavüzkar planlar həyata keçirdiklərini birmənalı bildirdilər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

## Lənkəran

1918-ci ilin mart-aprel hadisələri Lənkərandan da yan ötməyib. Erməni daşnakları Lənkəran şəhərində, Mamusta, Yuxarı Nüvədi, Vilvan, Veravul, Girdəni, Cil, Osaküçə, Darquba, Gərmətük, Sütəmurdov və digər kəndlərdə kütləvi qətliamlar törədiblər. Lənkəranda və qonşu rayonlarda 40-dək yaşayış məntəqəsini yandırıb, 2 min nəfərdən çox dinc sakini xüsusi amansızlıqla qətlə yetiriblər.

31 Mart Azərbaycanlıların Soyqırımı Günü Lənkəranda dərin hüznlə qeyd olunub. Səhər saatlarından Lənkəran Şəhər İcra Hakimiyyətinin, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, əmək kollektivlərinin, rayon ictimaiyyətinin nümayəndələri, minlərlə şəhər sakini soyqırımı qurbanlarının xatirəsinə salınmış parka toplaşmışdı.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov soyqırım qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə gül dəstəsi düzərək günahsız qətlə yetirilən insanların parlaq xatirəsini ehtiramla yad edib.



Sonra tədbir iştirakçıları abidənin önünə gül dəstələri düzüb şəhidlərin xatirəsinə dərin ehtiramlarını ifadə ediblər.

## Yardımlı

Yardımlılılar 1918-ci ilin mart hadisələri zamanı şəhid olmuş insanların xatirəsini daim əziz tuturlar. Rayon mərkəzində soyqırımı qurbanlarının şərəfinə abidə kompleksi ucaldılıb.



31 Mart Azərbaycanlıların Soyqırımı Günü kompleksin önündə anım mərasimi keçirilib. Rayon icra hakimiyyətinin başçısı Ayaz Əsgərov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ağsaqqallar, ziyalılar, gənclər, ictimaiyyətin nümayəndələri kompleksin önünə gül dəstələri qoyub şəhidlərin xatirəsini ehtiramla yad ediblər.

Yardımlı RİH başçısı Ayaz Əsgərov Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş yığıncaqda 1918-ci ilin mart hadisələri haqqında ətraflı söhbət açıb. Erməni şovinistlərinin xaricdəki havadarlarına arxalanaraq əsrlər boyu xalqımıza qarşı terror, soyqırımı aktları törətdiklərini və deportasiya həyata keçirdiklərini bildirib.

İcra başçısı erməni millətçilərinin qanlı cinayətlərinə ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verildiyini diqqətə çatdırıb. Ulu öndərin imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli və "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanlar bu baxımdan çox mühüm əhəmiyyətə malikdir. Bu tarixi sənədlərdə ilk dəfə olaraq azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların-soyqırımların rəsmən adı çəkilmiş, xalqımıza qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açılmış, davakar erməni millətçilərinin mənfur fəaliyyətinə siyasi-hüquqi qiymət verilmişdir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

## Qazax

Qazaxda 31 Mart Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbiri rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov açmış və erməni daşnaklarının azərbaycanlılara qarşı tarix boyu apardıqları soyqırım siyasəti barədə ətraflı məlumat vermişdir. Tədbirdən əvvəl azərbaycanlıların soyqırımına həsr olunmuş filmə və sərgiyə baxış keçirilmiş, soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Rəcəb Babaşov sonra bildirmişdir ki, Azərbaycan xalqına qarşı erməni vəhşiliyinin tarixi 200 ildən də əvvələ gedib çıxır. Bu müddət ərzində ermənilər xalqımıza qarşı dəfələrlə soyqırımlar törətmiş, şəhərlərimizi, kəndlərimizi xarabalığa çevirmişlər. Yüzlərlə, minlərlə azarbaycanlıları qanına qəltan edən, uşaqlara, yaşlılara, xəstələrə belə rəhm etmədən ağlasığmaz işgəncələr verən erməni qaniçənləri vəhşicəsinə öldürdükləri insanların meyitlərini təhqir etməkdən, azyaşlı uşaqları və körpələri diri-diri tonqala atmaqdan belə çəkinməmişlər.

İndi 1918-ci ilin mart hadisələrindən 99 il ötür. Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasəti 1918-1920-ci illərdə daha geniş yayılmışdır. Onlar Bakıda, Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və digər ərazilərdə azərbaycanlıları amansızlıqla, vəhşicəsinə qətlə yetirmişlər. Bu qanlı hadisələrin daha dəhşətlisi 1918-ci ilin martında törədilmişdir. Həmin il martın 30-da erməni-bolşevik birləşmələrinin Bakını Xəzər dənizindən yaylım atəşinə tutması ilə başlanan hadisələrin ardınca martın 31-də və aprelin 1-2-də qəddarlıqla həyata keçirilən qırğınlar kütləvi şəkil almış, silahlanmış erməni əsgərləri dinc əhalini vəhşicəsinə məhv etmişlər. Lakin təəssüflər olsun ki, bu Soyqırımına uzun müddət ölkəmizdə və dünyada hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların Soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında bu hadisələrə hüquqi-siyasi qiymət verilmiş və azərbaycanlıların ermənilər tərəfindən soyqırımına məruz qaldıqları ilk dəfə rəsmi olaraq bildirilmişdir.



Qazax RİHB aparatının aparıcı məsləhətçisi Müşviq Pirverdiyev, baş məsləhətçilər Teybə Hüseynova və Svetlana Qurbanova, məsləhətçilər Vəfa Cəbiyeva və Ülviyyə Namazova çıxış etmişlər.

Sonda Qazax şəhər 1 saylı uşaq musiqi məktəbinin şagirdləri tərəfindən soyqırıma həsr olunmuş şeirlər səsləndirilmişdir.

## Ağstafa

31 mart 2017-ci il tarixdə Yeni Azərbaycan Partiyasının Ağstafa rayon təşkilatında "31 Mart Azərbaycanlıların Soyqırımı Günü" ilə əlaqədar tədbir keçirilmişdir. Tədbir iştirakçıları soyqırım qurbanlarına həsr olunmuş kitab sərgisi ilə yaxından tanış olduqdan sonra onların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Tədbiri giriş sözü ilə Ağstafa Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Ramiz Tatarov açaraq "31 Mart Azərbaycanlıların Soyqırımı Günü" barədə ətraflı məlumat verdi. Qeyd etdi ki, 1918-ci il 30 mart tarixdən aprel ayının 3-dək əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscidləri, tarixi abidələri dağıtmış və Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.



Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir. Bu soyqırım nəticəsində 10 minlərlə azərbaycanlı qətlə yetirilmişdir.

Ulu öndər Heydər Əliyevin 1998-ci il martın 26-da, 1918-ci ilin mart hadisələrinin 80-ci ildönümü ərəfəsində, imzaladığı fərmanda erməni millətçiləri tərəfindən törədilmiş hadisələrə siyasi qiymət verildi. Daha sonra rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli, Ağstafa qəzetinin baş redaktoru İbrahim Əliyev və Qırılı kənd tam orta məktəbinin fransız dili müəllimi Elvin İmaməliyev çıxış etdilər.

**Vəli VƏLİYEV,**
**"Respublika".**